Xarici auditor şirkəti:
PraysvoterhausKupers Audit Azərbaycan MMC

PricewaterhouseCoopers Global (PwC) dünyanın peşəkar xidmət şirkətlər şəbəkələrindən biridir. İndiki formada şirkətlər şəbəkəsi baş ofisləri Londonda yerləşən Price Waterhouse and Coopers və Coopers & Lybrand şirkətlərin birləşməsi nəticəsində 1998-ci ildə yaradılmışdır.

Azərbaycanda 1995-ci ildə fəaliyyətə başlamış PraysvoterhausKupers (PwC) Azərbaycan respublikada peşəkar xidmətlər göstərən ilk beynəlxalq şirkətlərdən biridir. Şirkətimiz yerli iqtisadiyyata və biznes mühitinə əhəmiyyətli dərəcədə investisiyalar qoymuş və bu ənənəsini davam etdirməkdədir.

Müştərilərinə keyfiyyətli xidmətlər göstərməklə yanaşı, əməkdaşlarının peşəkar inkişafına da xüsusi önəm verir. Fəaliyyət göstərdiyi müddətdə çox sayda yüksək səriştəli mütəxəssislər üçün təlimlər keçmiş və onların peşəkarlıq səviyyəsini inkişaf etdirmişdir. Onlardan bir çoxu hələ də PwC-də çalışır, bəziləri isə Azərbaycanda özəl sektorun inkişafına öz töhfəsini verir.

PwC Azərbaycan yerli və beynəlxalq mütəxəssislərin geniş bilik və təcrübəsi sayəsində müştərilərimizə yüksək səviyyəli peşəkar xidmətlər göstərir. Müştərilərin artan tələblərinə cavab vermək üçün hərtərəfli xidmətlər təqdim edir. Bu xidmətlər bu günə qədər Azərbaycanda həyata keçirilən bəzi ən böyük və texniki cəhətdən mürəkkəb layihələri qəbul etməyinə və uğurla başa çatdırmağına imkan vermişdir. PwC bu sektorda lider kimi tanınır və peşəkar standartları müəyyən edən şirkət kimi qəbul edilir. İctimai məsələlər ilə bağlı fikirləri yüksək qiymətləndirilir və daim nəzərə alınır.

PwC Azərbaycan neft-qaz sənayesi, bank və maliyyə xidmətləri, eləcə də telekommunikasiya və istehlak məhsulları sektorunda geniş təcrübəyə malikdir. Aaudit, vergi, hüquq və məsləhət xidmətləri sahəsində keyfiyyəti təmin etməklə yanaşı, şirkətlərə və insanlara əldə etmək istədikləri dəyəri qazanmağa kömək edir. PwC-nin müştəri portfelinə yeni və inkişaf etməkdə olan müəssisələrlə yanaşı dünyanın aparıcı beynəlxalq şirkətləri, böyük ailə şirkətləri, dövlət müəssisələri, QHT-lər və özəl şirkətlər daxildir. Cəmiyyətdə etimad yaratmaq və mühüm problemləri həll etmək Şirkətin əsas hədəflərindəndir.